# “İşıqlı Azərbaycan Fotolarda” adlı foto müsabiqə

Energetiklər günü münasibətilə “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti “Gilavar” Foto Klubu ilə birgə **“İşıqlı Azərbaycan Fotolarda”** adlı foto müsabiqə keçirir.

Müsabiqənin keçirilməsinin əsas məqsədi həvəskar və peşəkar fotoqrafların baxışlarında Azərbaycanın müxtəlif məkanlarının inkişafını işıq mövzusu əsasında təqdim etmək, elektrik işıqları ilə bağlı olan yaradıcı fotoların çəkilməsinə təkan verməkdir. Hər şəhər və rayonumuzun öz gözəlliyini işıq mövzusu altında çəkmək və bu gözəllikləri insanlarımıza tanıtmaqdır.

Yarışma ilə bağlı bütün təşkilati məsələlər, o cümlədən fotoların qəbulu, münsiflərin seçimi, müsabiqənin şərtlərinə əməl olunmasına nəzarət “Azərişıq” ASC-nin nümayəndəsinin iştirakı ilə “Gilavar” Foto Klubu tərəfindən həyata keçiriləcək. Fotoqrafların işləri peşəkar münsiflər heyəti tərəfindən qiymətləndiriləcək. Müsabiqənin şərtləti beynəlxalq foto təşkilatlarının qayda və prinsipləri uyğun şəkildə təşkil olunur.

**Müsabiqənin şərtləri:**

Fotolar jpg/jpeg formatında, 300 dpi, uzun tərəfi 3000 pikseldən aşağı və ölçüsü 3 mb-dan az olmamaq şərti ilə təqdim edilməlidir.

Fotolar son 3 il ərzində çəkilməlidir.

Hər iştikaçı müsabiqəyə maksimum 4 ədəd foto təqdim edə bilər.

Təqdim edilən fotolar müəllifə məxsus olmalıdır. Lazım gəldikdə fotonun orijinal nüsxəsininin təqdim edilməsi istənilə bilər. Hər hansı bir müəllifin və ya internetdən yüklənilən fotoların yollanılması qəti qadağandır.

Fotolar rəngli və ya ağ-qara şəklində rəqəmsal formatda təqdim edilməlidir.

Fotonun üzərində heç bir ad, simvol, loqo və ya su nişanı olmamalıdır. Belə olduğu təqdirdə fotolar müsabiqəyə qəbul edilməyəcəkdir.

Fotoda kəsim, rəng doyma, kəskinlik, toz və kontrast düzəltmə kimi məqbul müdaxilə xaricində heç bir manipulyasiya və dəyişiklik qəbul edilmir. Fotonun bədii quruluşu dəyişdirilməməlidir.

Fotolar təqdim edildiyi zaman fotonun adı və çəkildiyi il qeyd olunmalıdır.

Fotoaparat və ya mobil telefonla çəkilmiş fotoların təqdim olunmasına heç bir məhdudiyyət qoyulmur.

Müsabiqənin təşkilatçıları iştirakçıların fotolarına dair icazə və müəllif hüquqları ilə bağlı heç bir məsuliyyət daşımır.

Mükafat qazanan fotoşəkillər kommersiya məqsədi olmadan, yalnız sərgi, təqdimat, təşviqat xarakterli məqsədlər üçün "Azərişıq" ASC tərəfindən müəllifin adı və soyadı qeyd olunmaqla çap edilə bilər.

İştirak şərtlərinə uyğun olmayan fotoların mükafatları ləğv ediləcək və başqa fotolar ilə əvəzlənəcək.

Fotolar kodlaşdırılaraq anonim şəkildə münsiflərə təqdim ediləcək. Münsiflər tərəfindən fotolara ballar veriləcək. Hər bir iştirakçının yalnız bir fotosu qalib ola bilər. Əgər bir neçə foto eyni bal toplayasa, o zaman münsiflər heyəti bədii cəhətdən ən üstün olanını qalib etmək səlahiyyətinə malikdir. Münsiflərin qərarı müzakirə olunmur və onların verdiyi qərar yekundur.

Müsabiqədə iştirak edən hər bir şəxs şərtlərlə razılaşdığını qəbul edir.

Fotolar **"İşıqlı Azərbaycan Fotolarda müsabiqəsi"** mövzusu ilə gilavar.net@gmail.com elektron ünvanına göndərilməlidir.

Nəticələrin elan olunması və qaliblərin mükafatlandırılması "Azərişıq" ASC-nin rəsmi saytında və sosial şəbəkədəki hesablarında, kütləvi informasiya vasitələrində elan oluancaq.

Yarışmaya fotoların göndərilməsi üçün son tarix 10 oktyabr 2021-ci il.

Müsabiqənin nəticələri 15 oktyabr 2021-ci il tarixində açıqlanacaq.

Qaliblərin mükafatlandırılması 20 oktyabr 2021-ci il tarixində keçiriləcək.

1-ci yer – 1000 AZN

2-ci yerlər – 500 AZN

3-cü yerlər – 300 AZN

Həvəsləndirici yerlər – 200 AZN